Şagirdyönlü tədrisin mahiyyəti, əsas parametrləri və üstünlükləri

Lətifə Məmmədova
Bakı şəhəri, 64 saylı orta məktəbin ingilis dili müəllimi.
E-mail: h.hokume@rambler.ru
https://orcid.org/0000-0002-4538-236X

Annotasiya

Şagirdyönlü tədris konstruktiv tədris nəzəriyyələri ilə sıx əlaqədardır. Bu nəzəriyyənin məqsədi müəllimlər və digər şagirdlərlə ünsiyyət şəraitində həyata keçirilən tədris prosesini təşviq etməkdən, şagirdlərə tədris prosesinin fəal iştirakçıları kimi yanaşmaqdan, eyni zamanda problem həll etmə və tənqidi düşünmə kimi bacarıqların aşılanmasını təmin etməkdən ibarətdir. Şagirdyönlü tədrisin əsas komponentlərinə tədrisin vaxtı və strukturu baxımından uyğunlaşdırılma imkanı, müəllim-şagird münasibətlərində pedaqoji ünsiyyət üslublarının tələb və şərtlərinə əməl olunması, təhsil müəssisələri arasında birbaşa iyerarxiya, müəllimlərin şagirdlərin dəstəklənməsi ilə əlaqədar məsuliyyətləri daxildir. Buraya həm də tədris təcrübəsini təkmilləşdirmək məqsədilə şagird və müəllimlərin müsbət davranışları, şagird və müəllimlər arasında qarşılıqlı əminliyə əsaslanan münasibət və təhsilverənlərin pedaqoji ustalığını da aid etmək olar. Bu məqalənin məqsədi müasir təlim metodları ilə ənənəvi tədris yanaşmalarının müqayisəsi, eləcə də müəllimlər, şagirdlər və bütövlükdə təhsil ictimaiyyəti üçün üstünlükləri daxil olmaqla, şagirdyönlü tədrisin əsas aspektlərinə aydınlıq gətirməkdən ibarətdir.

Açar sözlər

Şagirdyönlü tədris, şagird, müəllim, tədris planı, bilik.

http://dx.doi.org/10.29228/edu.66

Məqaləyə istinad: Məmmədova L. (2019) *Şagirdyönlü tədrisin mahiyyəti, əsas parametrləri və üstünlükləri.* «Azərbaycan məktəbi». № 4 (689), səh. 27–38

Məqalə tarixçəsi: Göndərilib — 17.09.2019; Qəbul edilib — 01.11.2019

Essence, main parameters and benefits of student-centered learning

Latifa Mammadova
English teacher of school No.64, Baku, Azerbaijan.
E-mail: h.hokume@rambler.ru
https://orcid.org/0000-0002-4538-236X

Abstract

Student-Centred Learning is a learning approach which is broadly related to constructivist theories of learning. It is characterised by innovative methods of teaching which aim to promote learning in communication with teachers and other learners and which take students seriously as active participants in their own learning, fostering skills such as problem-solving and critical thinking. Main components of Student-Centred Learning include flexibility and freedom in terms of the time and structure of learning, more and better teachers who strive to share their knowledge, clear understanding of students by teachers, flat hierarchy within education institutions, teacher responsibility for student empowerment, continuous ongoing improvement process, positive attitude by teachers and students with the aim of improving the learning experience, relationship of mutual assertiveness between students and teachers and focus on learning outcomes which enable genuine learning and deep understanding. This paper is aimed to highlight all the main aspects of Student-Centred Learning including its comparison with traditional teaching approaches and benefits for teachers, students and whole education community.

Keywords

Student-centered learning, student, teacher, curricula, knowledge.

http://dx.doi.org/10.29228/edu.66

To cite this article: Mammadova L. (2019) *Essence, main parameters and benefits of student-centered learning.* Azerbaijan Journal of Educational Studies. Vol. 689, Issue IV, pp. 27–38

Article history: Received — 17.09.2019; Accepted — 01.11.2019

Giriş

Şagirdyönlü tədris bir çox pedaqoqlar tərəfindən kifayət qədər tez-tez istifadə edilən termin olsa da, onun üçün qəbul edilmiş vahid bir tərif yoxdur. Lakin şagirdyönlü tədris yanaşmasının bütün tərəfdarları və bu yanaşmanı araşdıranlar tərəfindən qəbul edilmiş bir prinsip mövcuddur. Həmin prinsip tədris prosesinin mərkəzində şagirdin durmalı olduğunu bildirən nöqteyi-nəzərə əsaslanır. Bu, o deməkdir ki, şagirdlər tədris prosesinin mərkəzi elementidir. Hər bir şagirdin mövcud informasiyaları öyrənməsi, araşdırması və təhlil etməsi üçün müxtəlif üsullardan istifadə etmək tələb oluna bilər. Xüsusən tədris istiqamətləri ilə əlaqədar seçim etmək və bu cür seçimlərin nəticələrini təhlil etmək baxımından bəzi təhsilalanların şagirdyönlü tədris yanaşmasının tətbiq olunduğu tədris proqramlarına cəlb olunması üçün daha çox dəstəyə ehtiyac yaranır.

Şagirdlər qrup halında bir sıra baxışları, bacarıq və qüvvələri təmsil edir. Təhsilalanların tədris prosesinin mərkəzində olmasına əsaslanan şagirdyönlü təlim onların potensiallarından tam şəkildə istifadə etmələrini dəstəkləyən bu müxtəlifliyin nəzərə alındığı yeganə tədris üsuludur.

Ənənəvi tədrislə müqayisədə şagirdyönlü tədris

Ənənəvi tədris prosesində şagirdlərə onların tədris prosesində iştirak etmək ehtiyaclarını nəzərə almadan passiv informasiya qəbulediciləri kimi yanaşılır. Tədris prosesinə ənənəvi yanaşma çərçivəsində tədris planı şagirdlərin minimal səviyyəli iştirakına və qərarların əsas bilik mənbəyi kimi müəllimlər tərəfindən qəbul edilməsinə əsaslanır. Bu, şagirdlərdən sual verməyin və öyrədilən nəzəriyyələrə şübhə ilə yanaşmağın nadir hallarda gözlənildiyi iştirakyönlü olmayan bir yanaşmadır.

Şagirdyönlü təlimdən fərqli olaraq ənənəvi tədris parametrləri çərçivəsində təhsilalanların motivasiyası aldıqları qiymətlər əsasında şagirdlər arasındakı rəqabət şəklində təzahür edir, tədris planının hazırlanması, tapşırıqların təyin edilməsi və qiymətləndirmə prosedurasının formalaşdırılması müəllimlər tərəfindən həyata keçirilir. Bu tədris prosesində «dərsin izah edilməsi, qeydlərin aparılması və sonradan istifadə etmək üçün məlumatların yadda saxlanması» şəklində olan pedaqoji metoddan istifadə edilir [MakLellan və Soden, 2004, s. 254]. Son illərdə müxtəlif tədris nəzəriyyə və yanaşmalarının meydana gəlməsi, eləcə də yeni pedaqoji metodların tətbiq edilməsi ilə ənənəvi tədris yanaşması tənqidlərə məruz qalmağa başlayıb.

Ənənəvi tədris yanaşmasından fərqli olaraq, şagirdyönlü tədris yanaşması təhsilalanların öz tədris istiqamətlərini formalaşdırmalarına imkan verir və tədris prosesini mənalı bir prosesə çevirmək məsuliyyətini ehtiva edir. Bu proses

təhsilalanların təlimdə passiv iştirakına deyil, onların müstəqil şəkildə öyrənə bilmələrinə imkan verəcək fəallığına əsaslanır [MakHemer və Krouford. 2007, s.11].

Şagirdyönlü tədris yanaşmasının tərəfdarlarından bəziləri hesab edir ki, bu yanaşma şagirdlərə nə düşünmələrini öyrətməyə həddindən artıq çox vaxt sərf etmək yerinə, onlara necə düşünməyi öyrətməyə əsaslanır [Tsui. 2002, s. 740]. Şagirdlər arasında rəqabətə deyil, əməkdaşlığa əsaslanmaqla motivasiya yaradılır. Təhsilalanlara ideyalarını həmyaşıdları və müəllimləri ilə paylaşmaq, tədris proqramlarının daha mənalı şəkildə formalaşdırılmasına kömək etmək imkanı verilir. Bu kontekstdə şagirdlər sual verməyə cəsarətləndirilir və müəllimlərə əsas bilik mənbəyi kimi deyil, yolgöstərən kimi yanaşılır. Beləliklə, şagirdyönlü tədris prosesində müəllim bilik ötürücüsündən şagirdlərin özləri tərəfindən tənzimlənən, öyrənmə prosesini dəstəkləyən və onlara yol göstərən şəxsə çevrilir [Van Ekelen və b. 2005, s. 447].

Şagirdyönlü tədris parametrləri

Şagirdyönlü tədris yanaşmasının tətbiq edilməsinin müxtəlif üsullarının olmasına baxmayaraq, bu yanaşmanın bir sıra əsas aspektləri də var ki, onlar şagirdyönlü tədris parametrləri adlanır.

Birinci parametr arzu olunan şagirdyönlü tədris yanaşmasına nail olmağa gətirib çıxaran müəllimlər üçün davamlı peşəkar inkişafın əsasını təşkil edən innovativ tədrisdir [Trouler və b. 2005, s. 85].

İnnovativ tədris, əsasən, təhsilalanların tənqidi düşünmə qabiliyyətinin inkişaf etdirilməsi və bununla da «şagirdlərin müstəqil həyat boyu öyrənən şəxslərə çevrilməyə» yönəldilməsi məqsədi daşıyır [Tsui. 2002, s. 740]. Bu tədris üsulu tətbiq edilməsi baxımından müxtəlif formalarda təzahür edə bilər:

• Komanda şəklində öyrənmə. Birgə öyrənmə olaraq da adlandırılan bu metod şagirdlərin öz öyrənmə prosesləri üçün məsuliyyət daşımalarını təmin etmək məqsədilə istifadə olunan üsullardan biridir [Felder və b. 1996]. Bu, təhsilalanlara sinif yoldaşları ilə ünsiyyət qurmaq, ideyalarını paylaşmaq və bir-birinin öyrənmələrinə kömək etmək imkanı verir.

• Problem əsaslı öyrənmə: Şagirdlərin daha effektiv şəkildə öyrənməsini təmin etmək məqsədi daşıyan bu metod onların əldə etdikləri bilikləri öyrənmə prosesində tətbiq etməklə, sinif otağından kənarda qarşılaşa biləcəkləri problemləri həll etmək bacarığına əsaslanır.

• Şagirdlərin özləri tərəfindən tənzimlənən öyrənmə. Bu metod şagirdlərin öyrənmək istiqamətində öz gücü ilə irəliləməsinə, ancaq eyni zamanda həmin müddətdə və ondan sonra özlərinin monitorinq, motivasiya və əks-əlaqə proseslərini təşkil etməsinə əsaslanır [Van Ekelen və b. 2005, s. 451].

Zimmerman (2002-ci il, s. 66) şagirdlərin özləri tərəfindən tənzimlənən öyrənmə prosesində onların xarakteristikalarının müəyyənləşdirilməsi baxımından vacib olan səkkiz bacarığı qeyd edib:

1. Özləri üçün xüsusi hədəflər təyin etmək;
2. Bu hədəflərə nail olmaq üçün güclü strategiyalardan istifadə etmək;
3. Fəaliyyətin monitorinqi;
4. Öyrənmə mühitini şagirdin hədəflərinə uyğunlaşdırmaq;
5. Vaxtın səmərəli şəkildə idarə edilməsi;
6. Şagirdin metodlarının qiymətləndirilməsi;
7. Səbəb-nəticə əlaqələrinin yaradılması;
8. Gələcək metodların adaptasiyası.

Qeyd edilən komponentlərin əksəriyyəti fəal öyrənmə, yəni passiv şəkildə müəllimə qulaq asmaqdan fərqli öyrənmə prosesinin tərkib hissələridir. Bu proses təqdim edilən məlumatlar ətrafında düşünməni, onların qiymətləndirilməsi və müzakirə edilməsini də əhatə edir.

Tədris nəticələrinin istifadə edilməsi müvafiq ədəbiyyatlarda şagirdyönlü tədrisin ikinci parametri olaraq qeyd edilib. Tədris nəticələri dedikdə, şagirdlərin tədris prosesi nəticəsində əldə etmələri gözlənilən bilik və ya bacarıqlar nəzərdə tutulur. Şagirdyönlü tədris kimi tədris nəticələri üçün də konkret tərif mövcud deyil. Onlar fənn, mövzu və nəzərdə tutulan öyrənmə səviyyəsindən asılı olaraq müxtəlif ola bilər. Tədris nəticələrinin istifadə edilməsi dərs zamanı və dərsdən sonra gözləntiləri idarə etməkdə və dərslərini daha yaxşı tənzimləməkdə şagirdlərə kömək edir. Ümumiyyətlə, tədris nəticələri bu şərtləri ödəməlidir:

- Gələcək zamanda yazılmalıdır;
- Mühüm tədris tələblərini təyin etməlidir;
- Əldə edilə və qiymətləndirilə bilən olmalıdır;
- Şagirdlər tərəfindən asanlıqla başa düşülən şəkildə təsvir edilməlidir.

Tədris nəticələrini hər hansı verilmiş tədris planına inteqrasiya etməyin müxtəlif üsulları mövcuddur. Uotson (2002-ci il) tədris nəticələrinin müxtəlif fənlərə tətbiq edilə biləcək tədris planına inteqrasiyası ilə əlaqədar bir neçə meyar təyin edib. Bu meyarlara aiddir:

1. Tədris nəticələrinin ifadə edilməsinə müvafiq fənnə uyğun dəyişikliyin olması;
2. Nəticələrin tədris rejimi və metodundan asılı olmaması;
3. Tədris kursunu təşkil edənlərin tədris proqramı ərzində azı bir dəfə tədris nəticələrinin əldə olunduğunu göstərməsi;
4. Nəticələrin nə qədər vaxtın ayrılmasından, akademik əhəmiyyətdən və nailiyyətlərin tezliyindən asılı olmayaraq, minimal xüsusiyyətləri əhatə etməsi;
5. Təhsil müəssisəsinin hər bir tədris nəticəsi üçün öz nailiyyət standartlarını təyin edə bilməsi. Belə ki, bəzi fənlər üçün bacarıq, digərləri üçün isə sadəcə məlumatlılıq tələb oluna bilər.

Kredit toplama və köçürmə sistemindən istifadə etmək şagirdyönlü tədrisin üçüncü parametridir. Bu məqsədlə Avropa Kredit Köçürməsi Sistemindən istifadə edilir. Həmin sistem tədris nəticələri və proseslərinin şəffaflığını artırmaq məqsədi daşıyır.

Uyğunlaşdırıla bilən tədris planı və öyrənmə üsulları şagirdyönlü tədrisin dördüncü parametridir. Şagirdlərin öz öyrənmə yollarını təyin etməsinə imkan vermək bu prosesdə onların məsuliyyəti üzərinə götürmələrinə şərait yaradır. Təhsilalanların özləri üçün ehtiyaclarına uyğun gələn öyrənmə yolu formalaşdırmalarına imkan verən bu parametr, xüsusən qiyabi, məsafədən və ya axşam təhsil alan şagirdlər üçün münasibdir.

Şagirdyönlü tədrisin son parametri şagirdlərin tədris planına öz əlavələrini edə bilməsidir. Bu yanaşmanı tətbiq edən təhsil müəssisələri şagirdlərin bütün fənlər üzrə tədris planına əlavələr etməsinin dəstəklənməsinə təminat verməlidir. Belə yanaşma tədris planının şagirdlərin ehtiyacları, maraq və potensialları baxımından münasibliyi və yararlılığının inkişaf etdirilməsinə kömək edə bilər.

Şagirdyönlü tədrisin şagirdlər üçün üstünlükləri

Şagirdyönlü tədrisin şagirdlər üçün bir çox müxtəlif üstünlükləri mövcuddur. Bu ömürlük bacarıqlar formalaşdırır, müstəqil öyrənməyi bacaran şəxslər yetişdirir və ayrı-ayrı şagirdlərin dəyişkən və müxtəlif ehtiyaclarına cavab verir. Onun üstünlüklərinə qeyd olunan amillər daxildir:

Şagirdlərin akademik icmanın ayrılmaz hissəsi olmasının təmin edilməsi. Bu, nəzəri cəhətdən real görünsə də, praktikada sərt tədris strukturları səbəbindən buna nail olmaq çətin məsələdir. Şagirdyönlü tədris yanaşmasına əsasən müəllimlərin öyrədən şəxs deyil, yol göstərən şəxs olması sayəsində şagirdlər daha asanlıqla akademik icmanın ayrılmaz hissəsi ola bilər. Təhsilalanların düşünməyə həvəsləndirilməsi ilə analitik bacarıqlar və kritik düşünmə bacarığı daha tez əldə olunur. Bu kontekstdə axtarışyönlü tədris imkanı daha da genişlənir. Müəllimlər araşdırmalarını müzakirə edə, şagirdlərin məsələ ilə əlaqədar düşüncələrini dinləyə bilir, fikirlərinin dəyərləndirildiyini hiss etmələri şagirdlərin qarşılıqlı ünsiyyət və iştirak imkanlarını artırır. Bu həm də şagirdləri akademik icmaya daxil olmağa həvəsləndirir.

Öyrənmə motivasiyasının artması. Şagirdyönlü tədris öyrənmə piramidasında göstərildiyi kimi, şagirdləri dərindən öyrənməyə həvəsləndirə bilər. Biliklərin yadda saxlanması öyrənilən materialdan asılı olaraq dəyişsə də, fəal öyrənmənin bütün növləri üzrə ənənəvi tədrislə müqayisədə yaddasaxlama daha yüksək olur. Tapşırıqlar üçün fərqli düşünmə tələb olunduğu və onlar vasitəsilə fənnə qarşı maraq yaradıldığı üçün şagirdlər şagirdyönlü tədris yanaşması ilə öyrənməyə həvəs göstərir. Öyrənmə piramidasından da göründüyü kimi, fəal öyrənmə və fəal iştirak yanaşmalarından istifadə edildikdə şagirdlər öyrəndikləri məlumatların daha çox hissəsini yadda saxlayır.

Şəkil 1. Öyrənmə piramidası



Tədrisdə müstəqillik və məsuliyyət. Şagirdyönlü tədris çərçivəsində təhsilalanlar təlim materialına və dərs prosesinə nəzarət edə bilməlidir. Bu, şagirdlərin daha müstəqil olmasını təmin edirBu isə onların daha effektiv şəkildə öyrənməsinə və komanda işi, effektiv yazılı və şifahi bacarıqlar, tapşırıqların prioritetlərinin müəyyənləşdirilməsi və tənqidi analiz kimi digər bacarıqlarının əldə edilməsinə imkan verir.

Şagirdlərin ehtiyaclarının lazımi şəkildə nəzərə alınması. Bu ehtiyaclar bir-birindən fərqlənir. Şagirdyönlü tədris qiyabi, məsafədən və internet vasitəsilə təhsildən istifadə etməklə, şagirdlərin uyğunlaşdırıla bilən şəkildə təhsil almasına imkan verir. Bu yanaşma öyrənmənin ənənəvi tədris yanaşmasında olduğu kimi verilmiş vaxt və yerlə məhdudlaşmadığını göstərir. Şagirdlərin öyrənmə ehtiyacları onların tədris materialları ilə müxtəlif şəkildə işləməsi ilə ödənilə bilər. Məsələn, bəzi şagirdlər daha çox audiovizual materiallarla işlədiyi halda, digərləri oxumağa üstünlük verir.

Şagirdyönlü tədrisin müəllimlər üçün üstünlükləri

Şagirdyönlü tədris müəllimlər üçün də bir sıra üstünlüklərə malikdir. Buraya bir sıra amillər aid edilir:

Müəllimin iş şəraitinə müsbət təsir göstərməsi. Qeyd edildiyi kimi, şagirdyönlü tədris öyrənmək məsuliyyətini şagirdlərə yükləyir. Müəllimin işi sadəcə bu prosesi asanlaşdırmaq və ona şərait yaratmaqdan ibarət olur. Bəziləri bunu mənfi amil kimi qiymətləndirsə də, əslində, şagirdlərin öyrənmə imkanlarını genişləndirmək üçün yaxşı amildir.

Şagirdyönlü tədris öyrənmənin müxtəlif üsullarla baş tutmasına imkan verdiyi üçün müəllimin işi daha maraqlı ola və öyrətmə ilə əlaqədar iş şəraitinin mənfi aspektləri aradan qaldırıla bilər.

Müntəzəm özünüinkişaf. Şagirdyönlü tədris müəllimlərin dərslərinin məzmununu və tədris metodlarını təkmilləşdirə bilməsi üçün öz metodlarını nəzərdən keçirmələrinə imkan verir. Tədrisin bu cür təşkili nəticəsində qazanılan uğurlar sayəsində müəllimlər dərsdə daha fəal olan şagirdlərdən məqsədəuyğun və konstruktiv rəylər əldə edə bilir.

Şagirdlərin motivasiya və iştirak səviyyələrinin artırılması. Yeni tədqiqatların sinif otaqlarına gətirilməsi şagirdyönlü tədris yanaşması vasitəsilə reallığa çevrilir. İdeyaların səsləndirilməsi müəllimlərin araşdırma aparmalarına, təhsilalanların isə tədris prosesinin ilkin mərhələlərindən etibarən araşdırma və akademik icma ilə tanış olmalarına əhəmiyyətli dərəcədə töhfə verir.

Peşəkar inkişaf. Şagirdyönlü tədris həm fərdi inkişaf, həm də karyera irəliləyişi üçün münasib bilik və bacarıqların inkişafı baxımından daha yüksək səviyyəli peşəkar inkişaf təklif edə bilər. O eyni zamanda müəllimlərin yeni təlim və ya araşdırma üsullarını tətbiq etmək imkanlarını da genişləndirir.

Şagirdyönlü tədrisin inkişaf etdirilməsi üçün informasiya texnologiyalarından istifadə

Zaman keçdikcə təlim və tədris üsulları dəyişdiyi kimi, biliyin ötürülməsi yolları və şagirdlərin öyrənmək üçün istifadə etdikləri vasitələr də dəyişir. Onlayn və məsafədən təhsil təlim prosesində interaktiv vasitə, eləcə də informasiya idarəetmə sistemlərindən istifadə bunu aşkar şəkildə nümayiş etdirir.

Şagirdyönlü tədrisin tətbiq edilməsi üçün informasiya texnologiyalarından istifadə ilə əlaqədar yanaşmalar bu cür qruplaşdırıla bilər:

- şagirdyönlü tədrisi passiv deyil, aktiv vasitə kimi inkişaf etdirən, dərsin gedişi zamanı rəy bildirmə, heyətə nəzarət və dərsin yoxlanılması kimi imkanlar təmin edən elektron poçtdan istifadə;
- müəllim-şagird əməkdaşlığını və əlaqələri təkmilləşdirmək, dərsin daha maraqlı olmasına şərait yaratmaq üçün sinif otağında internetdən istifadə.

Şagirdlərin müəllimləri, tədris qrupları və kitabxanaçılarla qarşılıqlı əlaqə saxlaması üçün zəruri olan infrastruktura rəqəmsal vasitələr, çap edilmiş materiallar və ya multimedia vasitələri daxil ola bilər. İnformasiya texnologiyalarından həm müəllimlərin interaktiv mühit yaratmalarına kömək etmək məqsədilə sinif otağı daxilində, həm də şagirdlərin öyrənmə proseslərini genişləndirmək, sinifdə öyrənilənləri tamamlamaq məqsədilə sinif otağından kənarda istifadə etmək olar. Bu yanaşma eyni zamanda peşəkar inkişaf proqramlarının hazırlanması üçün effektiv komponent ola bilər. Müəllimlərin sinif otağında informasiya texnologiyalarından fəal şəkildə istifadə etməsi vacib məsələdir. Məsələn, «PowerPoint» prezentasiyalarından adekvat şəkildə istifadə edilmədiyi halda, sadəcə passiv istifadə edilən vasitəyə çevrilməsi riski mövcuddur.

Müəllimlər üçün şagirdlərin sinif otağında internet resurslarından istifadə

ilə əlaqədar adekvat balans ehtiyacını anlamalarını təmin etmək, eləcə də onların müxtəlif mənbələr arasındakı iyerarxiyanı müəyyənləşdirməsinə və tədris prosesində bunların effektiv istifadəsinə kömək mühüm məsələdir.

Şagirdlərin qiymətləndirilməsi metodlarının seçilməsi

Şagirdlərin qiymətləndirilməsi tədrisin ən mühüm elementlərindən biridir. Qiymətləndirmə nəticələri şagirdlərin sonrakı təhsil həyatına əhəmiyyətli dərəcədə təsir edir. Odur ki, bu prosesin peşəkarlıqla aparılması təmin olunmalıdır.

Şagirdyönlü tədris yanaşması çərçivəsində şagirdlərin qiymətləndirilməsi ilə əlaqədar bir sıra çətinliklər meydana çıxır. Bunun səbəbi qiymətləndirmənin, əsasən, şagirdlərin bir-biri ilə müqayisə edilməsinə əsaslanması ilə bağlıdır ki, bu da fərdi inkişafa deyil, rəqabətə təkan verir. Qeyd olunan məsələ xüsusilə şagirdlərin summativ üsulla qiymətləndirilməsinə aiddir. Belə ki, qeyd edilən halda qiymətlərə həddindən artıq əhəmiyyət verildiyi halda, tövsiyə vermək və öyrənmək funksiyalarına olduqca az əhəmiyyət verilir.

Cədvəl 1-də mümkün qiymətləndirmə metodları və onların məqsədləri göstərilib.

Şagirdlər qiymətləndirmə prosesinə bu cür daxil edilməlidir:

- qiymətləndirmə tapşırığının seçilməsi;
- qiymətləndirmə tapşırığının verilməsi;
- qiymətləndirmə meyarının müzakirə edilməsi;
- qiymətləndirmə meyarının təyin edilməsi;
- özünüqiymətləndirmə rəylərinin bildirilməsi;
- sinif yoldaşlarını qiymətləndirmək üçün rəylərin bildirilməsi;
- özünüqiymətləndirmə məqsədilə qiymətlərin təklif edilməsi;
- özünüqiymətləndirmə məqsədilə təklif edilən qiymətlərin müzakirə edilməsi;
- özünüqiymətləndirmə məqsədilə qiymətlərin verilməsi;
- sinif yoldaşlarını qiymətləndirmək məqsədilə qiymətlərin verilməsi.

Şagirdyönlü tədris yanaşmasında dərsin qiymətləndirilməsi

Dərsin qiymətləndirilməsi iki kateqoriyaya ayrıla bilər (Adelaida Universiteti, 2000-ci il):

Nəticənin qiymətləndirilməsi. Bu zaman dərsin şagirdlərə aşıladığı keyfiyyətlər nəzərdən keçirilir. Bu cür qiymətləndirmə zamanı müəllimlər qeyd olunan suallara cavab axtarır:

- Şagirdlərim onlar üçün təyin etdiyim hədəflərə uyğun bilikləri əldə edirmi?
- Şagirdlərim dərsdən əvvəl olduqlarına nisbətən daha yaxşı tənqidi düşünmə bacarığına sahibdirmi?

Cədvəl 1. Mümkün qiymətləndirmə metodları (Adelaida Universiteti, 2000-ci il)

Qiymətləndirmə metodu	Məqsədlər
Ev tapşırıqları	• Arqument və analizlərin hazırlanması. • Müvafiq məlumatların axtarılması. • Effektiv prezentasiyaların təşkil edilməsi. • İdeya və nəzəriyyələrin əlaqələndirilməsi. • İdeyaların müvafiq qaydada ifadə edilməsi.
Dərsliklərə baxmağa icazə verilən imtahanlar	• Mənbələrdən məlumat və ideyaların götürülməsi. • Materiallara adekvat şəkildə istinad etmək. • Məlumatların müvafiq vəziyyətlərə tətbiq edilməsi. • Əsas ideya və ya strukturların yadda saxlanması.
Şagirdlərin təklif etdiyi tapşırıqlar	• Dərs nəticəsində əldə edilməli olan biliklərin nümayiş etdirilməsi. • Dərsin struktur və materiallarının başa düşülməsinin nümayiş etdirilməsi. • Əsas məsələlərin başa düşülməsinin nümayiş etdirilməsi.
Şifahi danışıqlar	• Arqument və sualların cavablandırılması. • Mülahizə və ya ideyaların səbəblərinin göstərilməsi. • Digər iştirakçılarla qarşılıqlı ünsiyyət. • Ümumişlək/texniki nitqdən münasib şəkildə istifadə etmək. • İdeyaların dolğun şəkildə ifadə edilməsi.
Qrup şəklində layihələrin həyata keçirilməsi	• Əməkdaşlıq. • Real vəziyyətlərdən faydalanma. • Fərdi bacarıqların qiymətləndirilməsi. • Başqa baxış və modellərin nəzərə alınması.

• Şagirdlərim məsələ qaldırma və həll etmə baxımından eyni qaydada dərs keçdiyim əvvəlki şagirdlərimlə müqayisədə daha yaxşı nəticələr göstərirmi?

Prosesin qiymətləndirilməsi. Bu zaman tədris prosesi ərzində baş verənlər və dərsin gedişatı nəzərdən keçirilir. Qiymətləndirmə müəllimin qarşısına qoyduğu məqsədlərdən asılıdır. O, qeyd olunan sualları əhatə edə bilər:

• Şagirdlərimə müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirmək üçün stimul verirəmmi?

• Təklif etdiyim məşğələlər şagirdlərimi, həqiqətən cəlb edirmi?

• Şagirdlərim fənn üzrə biliklərini məktəbdən kənardakı «dünya» üçün ümumiləşdirə bilirmi?

• Fikirlərimi effektiv şəkildə çatdıra bilirəmmi?

Müəllimlərin dərslərinin hər biri üçün ən münasib qiymətləndirmə strategiyasını seçməsi vacib məsələdir. Qiymətləndirmə üçün çox sayda informasiya mənbəyindən istifadə edilə bilər. Bu mənbələrə daxildir:

• Şagirdlər: tədris prosesinin keyfiyyəti haqqında məlumatların əldə edilməsi üçün;

• Müşahidəçilər: dərs prosesi haqqında məlumatların əldə edilməsi üçün;

• Dərs materialları: tədris planları və fəlsəfələri haqqında məlumatların əldə edilməsi üçün;

• Məzunlar: dərsin real dünyaya uyğunluğu haqqında məlumatların əldə edilməsi üçün;

• Qiymətləndirmə nəticələri: tədris nəticələrinin əldə edilib-edilməməsi haqqında məlumatların əldə olunması üçün.

Bu mənbələrdən məlumatların əldə edilməsi üçün anketlər, müsahibələr, tədris jurnalları, gündəlikləri, müzakirələr, qeydlər, müşahidələr, internet səhifələrində olan rəy bölmələri və şagirdlərin işlərinin nəticələri daxil olmaqla, müxtəlif üsullar mövcuddur. Xüsusi halda, tədris prosesinin qiymətləndirilməsi zamanı şagirdlərdən göstərilənlər daxil olmaqla, bir sıra məsələlər haqqında rəy bildirmələri xahiş edilə bilər:

• dərs və müəllimlər;
• istifadə edilən dərsliklər;
• mövcud texniki vasitələr;
• şagirdlərin iş yükü;
• tədris fəaliyyətləri;
• şagirdlərin müxtəlif məşğələlərə sərf etdiyi vaxtlar;
• dərsin məzmunu;
• ötürülən bacarıqlarla əlaqədar fikirlər;
• dərs zamanı müzakirə üçün vaxtın ayrılması;
• istifadə edilən qiymətləndirmə metodlarının effektivliyi;
• nəzərdə tutulmuş tədris nəticələrinin əldə edilib-edilməməsi ilə əlaqədar fikirlər.

Nəticə

Məqalədə şagirdyönlü tədris yanaşması ənənəvi tədris yanaşması ilə müqayisəli şəkildə və həm müəllimlər, həm də şagirdlər üçün üstünlükləri göstərilməklə şərh edilmişdir. Şagirdyönlü tədris yanaşmasının araşdırılması nəticəsində məlum olur ki, bu yanaşma tədris prosesinin mərkəzinə şagirdləri qoymaqla, onların fərqli xüsusiyyətlərinin, bir-birindən kəskin fərqlənən tədris ehtiyaclarının nəzərə alınmasına, bütün tədris prosesinin bu göstəricilər əsasında və şagirdlərin birbaşa iştirakı ilə təşkil edilməsinə əsaslanır. Bu yanaşmanın

tətbiq edilməsi ilə şagirdlər tədris prosesinin passiv iştirakçısı yox, tədrisin təşkilində bilavasitə iştirak etməklə prosesin onlar üçün daha mənalı olmasına öz töhfələrini verir. Şagirdyönlü tədris yanaşmasının şagirdlərin akademik icmanın ayrılmaz hissəsi olmasının təmin edilməsi, öyrənmə motivasiyasının artması, tədrisdə müstəqillik, məsuliyyət, təhsilalanların ehtiyaclarının lazımi şəkildə nəzərə alınması və başqa üstünlükləri olduğu kimi, müəllimlər üçün də təhsilverənin rolunun daha maraqlı olması, iş şəraitinə müsbət təsir göstərməsi, müntəzəm özünüinkişaf, şagirdlərin motivasiya və iştirak səviyyələrinin artırılması, peşəkar inkişaf kimi üstünlükləri mövcuddur. Belə yanaşma çərçivəsində summativ qiymətləndirmə metodu əvəzinə, şagirdlərin özlərinin də iştirakı ilə daha effektiv qiymətləndirmədən istifadə edilir ki, bu da şagirdlərin fərdi inkişafı baxımından daha düzgün üsuldur.

İstifadə edilmiş ədəbiyyat

1. Angele A., Emma Di I., Koen G., Robert S. (2010). Student Centered Learning – An Insight Into Theory And Practice.
2. Angele A., Emma Di I., Koen G., Robert S. (2010). Student-Centred Learning – Toolkit for students, staff and higher education institutions.
3. Donna B., Paul G. (1986). A Guide to Student-Centered Learning.
4. Edward S. (2015). Interactive Student Centered Learning: A Cooperative Approach to Learning.
5. Richard M. Felder, Rebecca Brent (1996). Navigating the Bumpy Road to Student-Centered Instruction. College Teaching journal, p. 43-47.
6. McHemer P. L. & Crawford P. (2007). Student perceptions of active learning in a large crossdisciplinary classroom, p. 11.
7. Maclellan E. and Soden R. (2004). The Importance of Epistemic Cognition in Student-Centred Learning. Instructional Science, 32:3, p. 254.
8. Maryellen W. (2002). Learner-Centered Teaching – Five key changes to practice.
9. Phyllis B. (2009). Developing Learner-Centered Teaching: A Practical Guide for Faculty.
10. Trowler P. and Bamber R. (2005). Compulsory Higher Education Teacher Training: Joined-up Policies, Institutional Architectures and Enhancement Cultures. International Journal for Academic Development, 10, pp. 79-93.
11. Tsui L. (2002). Fostering Critical Thinking through Effective Pedagogy: Evidence from Four Institutional Case Studies. The Journal of Higher Education, 73:6, pp. 740-763.
12. Van Eekelen I. M., Boshuizen H. P. A and Vermunt J. D. (2005). Self-Regulation in Higher Education Teacher Learning. Higher Education, 50, pp. 447-471.
13. Willy A.R., Michael P., George M.J. (2016). Simple, Powerful Strategies for Student Centered Learning.